1_Layout 1 13.11.2022 9:19 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

DİN DAXİLİ QOŞUNLAR

№ 22 (636)

15 noyabr 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## Prezident İlham Əliyev: Alınmaz qala sayılan Şuşanı erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı



Alınmaz qala sayılan Şuşanı iki il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər.

**AZƏRTAC** xəbər verir ki, bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada keçirilən tədbirdəki çıxışında söyləyib.

Dövlətimizin başçısı qeyd edib ki, yüngül silahlarla təchiz edilmiş qəhrəman hərbçilərimiz Şuşanı azad edəndə Vətən uğrunda, torpaq uğrunda ölümə gedirdilər. Hər birimiz yaxşı anlayırdıq ki, Şuşasız bizim qələbəmiz mümkün olmayacaq.

"Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə, gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən, ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir. Hər dəfə Şuşada olarkən, - mən son iki il ərzində Şuşada on dəfədən çox olmuşam, - hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. Çünki "Zəfər yolu" adlandırdığımız yol cəmi iki ilə yaxındır ki, çəkilib. Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. Bu tarixi gündən cəmi iki il keçib və iki il ərzində bir çox hadisələr baş verib. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq.

Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Halbuki, biz dünya hərb tarixindən bilirik ki, belə çətin müharibələrdə, xüsusilə, bizim üçün əlverişsiz relyef şəraitində gedən müharibələrdə manevrlər də olur, geriyə addımlar da olur və gözlənilməz hadisələr də olur. Ancaq bizi Qələbəyə aparan güclü irada idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi. Sentyabrın 27-də - müharibənin birinci günündə altı kənd azad olunanda Azərbaycan xalqı daha da inandı ki, biz istədiyimizə nail olacağıq, tarixi missiyamızı yerinə yetirəcəyik.

Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən, Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Hərbçilərimiz ölümə gedirdilər, "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişdi ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyalarda, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər", - deyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev vurğulayıb.



## Nazir Vilayət Eyvazov Şuşada polis əməkdaşlarının və hərbi qulluqçuların xidmət şəraiti ilə tanış olub



Zəfər Günü ərəfəsində Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov, Daxili qoşunlar komandanının 1-ci müavini - qərargah rəisi general-mayor Tofiq Hüseynov və Daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının işğaldan azad olunmuş ərazilərdəki yerləşmə məntəqələrində olublar.

Nazir V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlığı durumu ilə maraqlanıb, həmçinin maddi-texniki təminatı ilə yaxından tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

General-polkovnik V.Eyvazov vurğulayıb ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə xidmətin müasir standartlar səviyyəsində təşkilinə dair verdiyi tapşırıqlara uyğun olaraq hərbi qulluqçuların maddi-texniki təminatı, kazarma-yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində, eləcə də qabaqcıl texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilmələri üçün ardıcıl tədbirlər həyata keçirilir.

Polis əməkdaşlarının və hərbi qulluqçuların işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirdiyini xüsusi qeyd edən nazir onları Zəfər Günü münasibətilə təbrik edib, xidmətlərində uğurlar arzulayıb.

**DİN-in Mətbuat xidməti**





2_Layout 1 13.11.2022 9:31 Page 1



# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ GÖRÜŞ

Noyabrın 4-də Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili Qoşunların Ali Hərbi Məktəb rəisinin yeni təyin olunmuş müşaviri polkovnik Kadir Akbeyi və Daxili Qoşunlarda xidməti ezamiyyətini başa vuran polkovnik Mehmet Erkuşu qəbul edib. Görüşdə Daxili qoşunlar komandanının müşaviri polkovnik Abdulkadir Seri və şəxsi heyət üzrə idarənin beynəlxalq hərbi əməkdaşlıq şöbəsinin rəisi polkovnik Yaşad Əliyev də iştirak ediblər.

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı qarşılıqlı xoş münasibətlərdən söz açan general-mayor İ.Muradov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb.

Polkovnik M.Erkuş da öz növbəsində, Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnun olduğunu ifadə edərək, bu müddət ərzində ona göstərilən diqqət və qayğıya görə dərin minnətdarlıq hisslərini çatdırıb.

Öz səmimi arzularını dilə gətirən komandan müavini polkovnik K.Akbeyə təyin olunduğu yeni vəzifədə, qarşıdakı fəaliyyətində müvəffəqiyyətlər və şəxsi həyatında xoşbəxtlik arzulayıb.

Görüşün sonunda general-mayor İ.Muradov polkovnik M.Erkuşa Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmri ilə verilmiş “Xidmətdə fərqləndiyinə görə” döş nişanını təqdim edib.



Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçıların andiçmə mərasimi keçirilib



Noyabrın 5-də Daxili Qoşunların Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.



Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ MƏRASİMLƏR TƏŞKİL OLUNUB

Noyabrın 2-dən 4-dək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 67987, 16075, 17072, 16077, 17071, 12318, 16073, 25033 və 17074 saylı hərbi hissələrində 8 Noyabr - Zəfər Gününün ikinci ildönümünə həsr olunmuş təntənəli mərasimlər keçirilib.



Tədbirlərdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in Daxili Qoşunlarının hərbi qulluqçuları, polis əməkdaşları, şəhidlərin ailə üzvləri, veteranlar, həmçinin DİN-in rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

Mərasimlərin əvvəlində respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin abidələri önünə gül dəstələri qoyulub, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Dövlət Himni səsləndikdən sonra çıxış edənlər bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz iradəsi, qalib ordumuzun rəşadəti sayəsində işğalçı Ermənistan məğlubiyyətə uğrayaraq kapitulyasiya aktını imzalayıb. 30 il işğal altında olan torpaqlarımız cəmi 44 gün davam edən “Dəmir yumruq” əks-hücum əməliyyatı nəticəsində işğaldan azad olunub. Doğma Qarabağımızda müqəddəs üçrəngli bayrağımız ucaldılıb. Döyüş meydanında qisası alınan şəhidlərimizin ruhu şaddır. Bu möhtəşəm hərbi zəfərdən sonra yüz minlərlə vətəndaşımızın üzərindən məcburi köçkün adı götürülüb. Bu gün hər birimiz qalib dövlət və xalq adını daşımaqdan böyük qürur hissi yaşayırıq.




Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının və polis əməkdaşlarının şərəfli yol keçdikləri vurğulanaraq qeyd olunub ki, döyüş tapşırıqlarını yerinə yetirərkən Daxili Qoşunların hərbi qulluqçularından 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb. Onlardan dörd nəfəri “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb, minlərlə hərbi qulluqçu orden və medallarla təltif olunub.



Şəhid ailələrinin üzvləri və digər qonaqlar 8 Noyabr – Zəfər Günü ilə əlaqədar hərbi qulluqçulara və polis əməkdaşlarına öz təbriklərini çatdırıblar, onlara şərəfli xidmətlərində uğurlar arzulayıblar.

Tədbirlər şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatıb. Sonda xatirə şəkilləri çəkdirilib.

**Mətbuat xidməti**

# UŞAQLARIN ZƏFƏR BAYRAMI COŞQUSU

2020-ci il sentyabrın 27-dən başlayan və şanlı ordumuzun möhtəşəm qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları yüksək fədakarlıq nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdilər. Uzun illər düşmən tapdağı altında olan torpaqlarımız şəhidlərimizin və qazilərimizin canı və qanı bahasına işğaldan azad edildi.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz böyük hərbi zəfər qazandı.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə respublikamızda təsis edilən 8 Noyabr - Zəfər Günü ölkə miqyasında müxtəlif idarə və təşkilatlarda böyük coşqu ilə qeyd olunub. Bununla əlaqədar olaraq ölkəmizin bütün bölgələrində şəhidlərin əziz xatirəsi ehtiramla anılıb, onların məzarları ziyarət olunub, hər birinin ruhuna dualar oxunub.

Zəfər bayramı bu il də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının imzaladığı plana əsasən yüksək səviyyədə qeyd olunub. Şəhid olmuş hərbi qulluqçuların xatirəsinə həsr olunmuş tədbirlər keçirilib. Şəhidlərin məzarları ziyarət olunub və şəhid hərbi qulluqçuların ailələrinə baş çəkilib.




Məlumat üçün qeyd edək ki, noyabrın 5-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin ərazisində fəaliyyət göstərən uşaq bağçasında bayram tədbiri keçirilib. Tədbir respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb, Dövlət Himni ifa olunub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak edərək şəhidlik zirvəsinə ucalan və yaralanan hərbi qulluqçuları barədə məlumat verilib. Daha sonra hərbi qulluqçularımızın azyaşlı övladları tərəfindən Zəfər bayramına həsr olunmuş səhnəciklər nümayiş etdirilib, vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib. Musiqi nömrələrinin ifa olunduğu tədbir nur çöhrəli övladlarımızın rəqsləri ilə də yaddaqalan olub.

**kapitan Xədicə Hacızadə**

# Daxili İşlər Nazirliyi Akademik Milli Dram Teatrında 8 Noyabr - Zəfər Gününə həsr olunmuş təntənəli tədbir keçirib







Noyabrın 5-də Akademik Milli Dram Teatrında Daxili İşlər Nazirliyi tərəfindən Zəfər Gününün ikinci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Himni səsləndikdən sonra Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun 8 Noyabr – Zəfər Günü ilə əlaqədar tədbir iştirakçılarına ünvanladığı təbrik və xoş arzuları onların nəzərinə çatdırılıb.

Mərasimdə çıxış edən Daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu qeyd edib.

Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin idarə rəisi, polis polkovniki Elçin Məmmədli qeyd edib ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

Tədbirin davamında çıxış edənlər – Daxili Qoşunların "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin komandiri, "Zəfər" ordenli kapitan Anar Mahmudov, "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmiş Hacıqabul Rayon Polis Şöbəsinin bölük komandiri, polis mayoru Elçin Bəhmənov, "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmiş DİN-in Əlahiddə Çevik Polis Alayının polis nəfəri, kiçik serjant Kənan Sultanov və digərləri istər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının ön cəbhənin müxtəlif istiqamətlərində işğalçı düşmənə qarşı mətinliklə döyüşdüklərini bildiriblər. Çıxışçılar bu gün işğaldan azad olunan ərazilərdə Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla qeyd ediblər.

Tədbirin sonunda xalq artisti Azər Paşa Nemətovun müəllifi və quruluşçu rejissoru olduğu "Zəfər yolu" tamaşası nümayiş etdirilib.

**DİN-in Mətbuat xidməti**









*Qazilərimiz*

## MÜHARİBƏNİN QIRX ÜÇÜNCÜ GÜNÜ TOPXANA MEŞƏSİNDƏ YARALANAN CƏSUR SİLAHDAŞIMIZ

Azərbaycan dövləti və xalqının həyatında müharibə faciələri dərin iz qoyub. Ermənistanın hərbi təcavüzü nəticəsində soyqırım, məcburi köçkünlük, torpaq işğalı, terror, vandalizm kimi müsibətləri yaşamaq, çoxlu sayda qurban vermək, uzun illər beynəlxalq aləmin ikiüzlü, laqeyd mövqeyi ilə üz-üzə qalmaq acı və dözülməz gerçəklik olub. Düşmənimiz elə zənn edirdi ki, biz gücümüzü toparlayaraq ondan qisas ala bilməyəcəyik. İşğalçı dövlət həm xarici havadarlarına, həm də illərlə möhkəmləndirdiyi müdafiə sədlərinə arxalanırdı. 44 günlük Vətən müharibəsi zamanı qeyd etdiyim amillər ermənilərin köməyinə yetmədi. Müzəffər Ordumuz bütün sədləri yardı, qarşısına çıxan maneələri aradan qaldırdı, hakim yüksəklikləri fəth etdi, ərazilərimizi işğalçılardan təmizlədi, doğma Qarabağımızda üçrəngli bayrağımızı ucaltdı.

Bizə zəfər qürurunu bəxş edən xalqımızın cəsur oğulları arasında qazi olanlar az deyil. Onların bir hissəsi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yetirməsidir. Daxili Qoşunların sabiq hərbi qulluqçusu ehtiyatda olan baş çavuş Nəzərli Baba Akif oğlu da Vətən müharibəsi qazisidir. O, 1997-ci il yanvarın 10-da Salyan rayonunun Qaraçala qəsəbəsinin Peyk kəndində doğulub. Akif Nəzərov və Gülşən Nəzərovanın yeganə oğul övladı, ailənin sonbeşiyidir, bir bacısı var. Nəzərovlar ailəsi Peyk kəndində yaşayır. Baba Peyk kənd tam orta məktəbinin məzunudur. Orta məktəbdə çağırışaqədərki hazırlıq fənnindən "əla", tarix və fiziki tərbiyə fənlərindən isə "yaxşı" qiymətlər alıb. Valideynləri və müəllimləri tərəfindən təqdirəlayiq tərbiyə olunaraq ləyaqətli, vətənpərvər, zəhmətkeş gənc kimi yetişdirilib. Məktəbi bitirdikdən sonra ailəyə kömək etmək üçün fərdi işlərdə çalışıb.

2015-ci ilin yanvar ayında Baba müddətli həqiqi hərbi xidmətə çağırılaraq, Daxili Qoşunların sıralarına qəbul olunub. 25031 saylı hərbi hissədə müvafiq təlim dövrünü başa vuraraq hərbi and içib. 25032 saylı hərbi hissədə kiçik komandir hazırlığı kursunu keçib. Kiçik komandir olaraq hərbi xidmətini davam etdirmək üçün 16077 saylı hərbi hissəyə göndərilib. Orada əməliyyat və komendant bölüklərində vicdanla xidmət etdiyi nəzərə alınaraq komandirlər tərəfindən barəsində həvəsləndirmələr tətbiq edilib.

2016-cı ilin iyul ayının 1-dən etibarən Baba öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr, xüsusi vasitələrin tətbiqi, götürmə qruplarının atıcısı və baş atıcısı, o cümlədən, xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrup komandiri vəzifələrində xidməti zamanı komandanlığın etimadını doğruldub. "Baş çavuş" hərbi rütbəsinədək yüksəlib. Silahdaşlarının hörmətini qazanıb.

25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandanlığından verilən məlumata görə, qarşıya qoyulan tapşırıqları və funksional vəzifələrini məsuliyyətlə yerinə yetirən Baba xidmət dövründə yüksək döyüş və mənəvi-psixoloji hazırlığı ilə fərqləndiyindən dəfələrlə mükafatlandırılıb. Komandir üçün gərəkli keyfiyyətlərə malik hərbi qulluqçu olub. Hərbi kollektivdə intizamın və yoldaşlığın möhkəmləndirilməsinə öz töhfəsini verib. İctimai qaydanın və təhlükəsizliyin qorunması, eləcə də koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi üzrə xid-



mətə cəlb olunub.

2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda Baba silahdaşları ilə birlikdə ön cəbhəyə göndərilib. Füzuli, Cəbrayıl, Xocavənd rayonları və Şuşa şəhəri istiqamətlərində döyüş yolu keçib. Düşmən mövqelərinin ələ keçirilməsi, azad edilmiş ərazilərimizin müdafiəsi, ön cəbhədəki hərbi obyektlərin mühafizəsi, irəliləyən bölmələrə döyüş təchizatının çatdırılması, yaralıların təxliyyəsi, işğalçılardan qalmış silah-sursatın, texnikanın axtarılmasında fəal iştirak edib. Qətiyyətli və cəsarətli hərbi qulluqçu kimi Baba çətin sınaqlardan çəkinməyərək hərbi anda sadiq qalıb. Müharibənin 43-cü günü – noyabrın 8-də Şuşa ətrafında təcavüzkarın 82 mm minaatan mərmisinin partlaması səbəbindən bir neçə döyüşçümüz yaralanıb. Onların içərisində Baba da vardı.

Vətən müharibəsi iştirakçıları, 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin idarə heyətinin heyət rəisi gizir Coşqun Həsənov və həmin dəstənin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrup komandiri baş çavuş Şəhriyar Hacıyev bildirdilər ki, Baba ilə eyni bölmənin tərkibində xidmət ediblər. Silahdaşları onun özünə qarşı tələbkar, məsuliyyətli, əzmkar, vətənpərvər, qayğıkeş hərbi qulluqçu kimi xidmət dövründə şəxsi heyətə örnək olduğunu söylədilər. Hərbi hissədə keçirilmiş idman yarışlarında həvəslə iştirak edərək üstün fiziki hazırlığı ilə də seçilib. Yoldaşlıqda etibarlı olduğunu vurğuladılar.

Onların sözlərinə görə, Vətən müharibəsində hərbi hissənin komandiri polkovnik Rüstəm Dəmirov və dəstə komandiri polkovnik-leytenant İsmayıl Fərmanovun rəhbərliyi altında, qoşunların ayrı-ayrı hərbi hissələrinin, habelə digər qoşun növlərinin hərbi qulluqçuları ilə birgə döyüş tapşırıqlarını yerinə yetiriblər. Baba qorxmaz və iradəli hərbi qulluqçu kimi öndə olmağa can atıb. Müharibənin bütün əziyyətlərinə dözümlə yanaşıb. Torpaqlarımızı düşmən tapdağından azad etmək üçün silahdaşları ilə birgə fədakarlıq göstərib.

Müsahiblərim qeyd etdilər ki, Baba 2020-ci il noyabrın 7-dən 8-nə keçən gecə Şuşa ətrafındakı Topxana meşəsi ərazisində düşmən minaatanından atılan mərminin yaxınlığında partlaması nəticəsində yaralanaraq kəllə-beyin travması alıb. İlk tibbi yardım göstərilən Babanı geriyə Coşqun və Şəhriyar təxliyyə ediblər. Digər hərbi qulluqçular tərəfindən də onlara köməklik göstərilib.

Döyüşçü bir neçə rayon və şəhər xəstəxanası, həmçinin Daxili Qoşunların Hərbi Qospitalında müayinə və müalicə olunub. Tibbi sənədlərində qaziyə "partlayış travması nəticəsində sol görmə sinirinin atrofiyası" diaqnozu və yaralanmanın digər fəsadları öz əksini tapıb. Beləliklə, onun sol gözü görmə qabiliyyətini itirib. Hərbi xidmətə yararsız hesab edilərək III qrup əlillik dərəcəsi verilib. 2021-ci il iyunun 29-da Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamı ilə ehtiyatda olan baş çavuş B.Nəzərli "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

Qeyd edim ki, Babanın xalası oğlu, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin komando hərbi qulluqçusu olmuş gizir İsmayıl Budaqlı bu ilin sentyabr ayında Ermənistanla sərhəddə baş vermiş döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Bir neçə nəfər qohumu isə müharibə veteranıdır.

2022-ci ilin yanvar ayında Güldəstə xanımla evlənən, doğma kəndində ailəsi ilə yaşayan Baba hazırda işləmir, səhhəti ilə bağlı vaxtaşırı müayinə və müalicəsini davam etdirir. Ailənin qayğısı və mənəvi dəstəyi qazi üçün vacib amildir. Silahdaşları həmişə onunla əlaqə saxlayırlar. Kənddə yaşayan gənclərə müharibə haqqında danışır, onlara vətənpərvərlik əqidəsi aşılayır.

Müharibədən əlil olaraq qayıtsa da, hərbi xidmət üçün darıxsa da, heç vaxt ruhdan düşmədiyini, dövlətimizin çağırışı ilə yenidən silaha sarılmağa hazır olduğunu vurğuladı.

**Yalçın Abbasov**

4_Layout 1 14.11.2022 9:52 Page 1



# "CANAVAR" XÜSUSİ TƏYİNATLI DƏSTƏSİ HƏRBİ HİSSƏNİN ÖNCÜLLƏRİ SIRASINDADIR







Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istərsə də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir iradə" tələb edir. Bu mənada 17071 saylı hərbi hissənin "Canavar" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.

İlin istənilən fəslində, müxtəlif relyefli ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Dəstə komandiri kapitan Anar Mahmudov bildirdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı da daim diqqətdə saxlanılan əsas məqamlardandır.

Kapitan A.Mahmudov, həmçinin vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, ekstremal şəraitlərdə dayanıqlığın, fəal, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi, eləcə də yüksək nizam-intizamın saxlanılması, sayıqlığın aşılanması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi xüsusilə diqqət mərkəzindədir.

"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır" – deyə fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rasim Əliyev bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə kiçik hərbi kollektivdir. Dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin vacib vəzifələrindəndir".

Kapitan A.Mahmudov Vətən müharibəsi zamanı dəstənin onlarla hərbi qulluqçusunun döyüş əməliyyatlarına cəlb olunduğunu, onlardan 2 nəferinin qəhrəmancasına şəhid olduğunu, bir çoxunun yaralandığını və ümumilikdə 58 nəferin Azərbaycan Respublikasının Prezidenti və müdafiə naziri tərəfindən orden və medallarla təltif edildiyini qeyd etdi. Şəxsi heyətin yüksək döyüş hazırlığı və hərbi intizam nümayiş etdirərək qarşıya qoyulan istənilən tapşırığı müvəffəqiyyətlə yerinə yetirməyə daim hazır olduğunu vurğuladı.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

# ÖZ SAHƏSİ ÜZRƏ TƏCRÜBƏLİ ZABİT



Müasir dövrdə istər xüsusi əməliyyatlar, istərsə də keçirilən beynəlxalq tədbirlər zamanı qarşıya qoyulan tapşırıqların vaxtında və uğurla icra edilməsində rabitənin rolu əvəzolunmazdır. Rabitə texnologiyalarının dinamik inkişafı bu sahədə mütəxəssislərin yetişdirilməsini zəruri edir. Ali Hərbi Məktəbin komandanlığı tərəfindən müsbət xarakterizə edilən rabitə və AİS xidmətinin rəisi kapitan Elşad Mövsümovun xidməti fəaliyyəti ilə yaxından tanış olduqda buna bir daha əmin oldum. Ali Hərbi Məktəbin rəisinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Nəriman İsayev onun öz sahəsi üzrə kifayət qədər bacarıqlı zabit olduğunu və şəxsi heyətin peşə hazırlığının yüksəldilməsi istiqamətində mütəmadi olaraq çalışdığını nəzərimizə çatdırdı.

Kapitan E.Mövsümov 1989-cu il avqustun 18-də Neftçala şəhərində doğulub. 2007-ci ildə Neftçala şəhər 1 saylı tam orta məktəbini bitirib. 2007-2009-cu illərdə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilib. 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Ali Hərbi Məktəb) daxil olub, 2014-cü ildə isə məktəbi müvəffəqiyyətlə bitirən məzuna "leytenant" hərbi rütbəsi verilib. Beləliklə, 2014-cü ildə Daxili Qoşunların 16076 saylı hərbi hissəsində taqım komandiri vəzifəsinə təyin olunub.

2018-ci ilə kimi müxtəlif vəzifələrdə xidmətini davam etdirən zabit həmin ilin sentyabr ayında Türkiyə Respublikasında rabitə kursunu keçərək hazırda xidmət etdiyi vəzifəyə təyin edilib.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan kapitan E.Mövsümov hərbi qulluqçularla keçirilən rabitə hazırlığı məşğələlərində yüksək peşəkarlıq nümayiş etdirir. Tabeliyində xidmət edən rabitəçilərin hazırlıqlarına ciddi yanaşan xidmət rəisi onlara rabitə vasitələrinin istifadəsi qaydalarını, xidmətə cəlb edilən hərbi qulluqçuların məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət etmələrini aşılayır. Bundan əlavə, rabitə vasitələrinin döyüşə hər zaman hazır vəziyyətdə saxlanılmasını təmin edir.

**kapitan Şahin Cəfərzadə**

# SÜRÜCÜ PEŞƏKARLIĞI TƏHLÜKƏSİZLİYİN VACİB ŞƏRTİDİR



Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobillərin idarə edilməsində, şəxsi heyətin, habelə yüklərin vaxtlı-vaxtında daşınmasında peşəkar sürücülərin rolu böyükdür. 25032 saylı hərbi hissənin sürücü və kiçik mütəxəssis hazırlayan tədris bölüyünün komandiri baş leytenant Nihad Sərdarlı bu işdə üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirən hərbi qulluqçulardan biri kimi baş çavuş Nəsib Hümbətovun adını çəkdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş N.Hümbətov 1994-cü il iyunun 15-də İmişlidə anadan olub. 2012-ci ildə Kürdəmir rayon Atakişili kənd tam orta məktəbini bitirib. 2012-2014-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hələ 15 yaşında olarkən idmanın cüdo növü ilə həvəskar səviyyədə məşğul olub. Həyatda ən böyük marağı avtomobillərədir.

2016-cı ildə 25033 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Bu hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edən baş çavuş N.Hümbətov 2018-ci il oktyabrın 23-dən bu günə kimi 25032 saylı hərbi hissədə sürücü və kiçik mütəxəssis hazırlayan tədris bölüyündə sürücülük üzrə təlimatçı vəzifəsindədir. Verilən tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə dəfələrlə hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

**baş leytenant Nigar Ağayeva**

# BÖLÜYÜN ŞƏXSİ HEYƏTİ DÖYÜŞ XİDMƏTİNİN YERİNƏ YETİRİLMƏSİNDƏ PEŞƏKARLIQ NÜMAYİŞ ETDİRİR







16073 saylı hərbi hissənin komendant bölüyü döyüş bayrağının, anbarların, parkın etibarlı şəkildə mühafizə və müdafiəsini həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir, döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Bölük komandiri kimi kapitan Rafil Şükürov bu istiqamətdə üzərinə düşən vəzifələri məsuliyyətlə icra edir. O, 2009-cu ildən Daxili Qoşunların sıralarındadır. 2021-ci ilin iyul ayından hazırkı vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur, həm özünün, həm də tabeliyində olan şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, hərbi intizamının möhkəmləndirilməsi üçün səylə çalışır.

Bölük komandiri bildirdi ki, xidməti vəzifələrin yerinə yetirilməsi şəxsi heyətdən əzmkarlıq, ayıq-sayıqlıq tələb edir. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçuların sağlamlığı, mənəvi-psixoloji durumu hər zaman diqqətdə saxlanılır. Əlavə etdi ki, komandir heyəti tərəfindən verilən bütün tapşırıqlar dəqiq və vaxtında yerinə yetirilir. O, şəxsi heyətin bilik və bacarığının artırılması məqsədilə nəzəri və praktiki məşğələlərin keçirildiyini, bu məşğələlərin hərbi qulluqçuların müəyyən olunmuş normativləri düzgün yerinə yetirmələrinə, atış vərdişlərinin artmasına xidmət etməklə yanaşı, onlarda əzmkarlıq, dözümlülük kimi keyfiyyətlərin formalaşmasında da mühüm rol oynadığını söylədi. Mütəmadi olaraq şəxsi heyətlə aparılan işin nəticəsidir ki, bu gün komendant bölüyü hərbi hissənin bölmələri arasında seçilənlərdəndir. Belə ki, cari ilin avqust ayında keçirilən inspeksiya yoxlamasının nəticələrinə əsasən, komendant bölüyü hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.

Kapitan R.Şükürov xidmətin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edildiyini dedi: "Xidmətdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri çatdırılır, fərdi qaydada hər biri ilə söhbət aparılır, mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır".

Postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, həmçinin asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliə olunması, stolüstü oyunların oynanılması diqqətdə saxlanılır.

Bölük komandiri vəzifələrinin icrasında fərqlənən hərbi qulluqçulardan gizir Rəşad Mikayılov, baş əsgər Elnur Musayev, əsgərlər Tuqay Cəlilov və Vahid Məmmədlinin adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin müdafiə və aviasiya sahəsindəki ixracatı 3 milyard dolları ötüb



Türkiyə İxracatçılar Məclisi (TİM) müdafiə və aviasiya sənayesi sektorunun 2022-ci ilin oktyabrında ixrac etdiyi məhsullarının nəticələrini açıqlayıb. "Poliqon" TİM-ə istinadən xəbər verir ki, Türkiyənin müdafiə və aviasiya sənayesi şirkətləri cari ilin oktyabrında 464.5 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə 2022-ci il yanvarın 1-dən oktyabrın 31-nə qədər ixrac edilən məhsulların dəyəri artıb. Belə ki, keçən il 2.3 milyard ABŞ dolları dəyərində məhsul ixrac edildiyi halda cari ildə bu rəqəm 3.2 milyard ABŞ dollarına yüksəlib.

## Allah rəhmət eləsin

17071 saylı hərbi hissənin komandanlığı polkovnik-leytenant Akif Nehmətova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı gizir Nurani Mikayılova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı MAXE kiçik çavuş Elşən Mahmudova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000